BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Sosial-siyasi elmlər seriyası* 2006

# ƏCNƏBİLƏRİN AYRI-AYRI KATEQORİYALARININ HÜQUQİ VƏZİYYƏTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Ə.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə əcnəbilərin ayrı-ayrı kateqoriyalarının hüquqi vəziyyətinin əsas xüsusiyyətləri mühüm beynəlxalq normalar və Azərbaycan Respublikası qanunvericiliyi ilə müqayisəli şəkildə təhlil edilir. İlk növbədə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətlərindəki mühüm fərqlər müəyyən edilir və belə nəticəyə gəlinir ki, hər iki kateqoriya şəxslərin hüquqi vəziyyəti arasında bir sıra mühüm fərqlər vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (əcnəbi (xarici) vətəndaşların) vahid «əcnəbi» kateqoriyası adı altında birləşdirilməsini qeyri-mümkün hesab edir.*

*Daha sonra, əcnəbilərin ayrı-ayrı kateqoriyalarının (qaçqınlar, turistlər, əməkçi-miqrantlar və s.) hüquqi vəziyyətlərinin əsas xüsusiyyətlərinin təhlili zamanı Azərbaycan Respublikası tərəfindən qəbul edilmiş dövlətdaxili normativ hüquqi aktlara müraciət edilməklə bərabər, digər dövlətlərin qanunvericilik və beynəlxalq müqavilə praktikası da araşdırılır, nəhayət, bu sahədə Azərbaycan Respublikası qanunvericiliyinin formalaşması və daha da təkmilləşdirilməsi istiqamətində bir sıra praktik təkliflər irəli sürülür. Belə bir mühüm nəticəyə gəlinir ki, əcnəbilərin təsnifləşdirilməsi zamanı ayrı-ayrı kateqoriya şəxslər vardır ki, bu kateqoriya şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyətləri bir sıra əlamətlərinə görə bir-birindən fərqlənir. Onlar bütün hallarda Azərbaycan Respublikası vətəndaşı deyillər və digər dövlətin vətəndaşlığına malikdirlər. Bu xüsusiyyət onları vahid «əcnəbi» kateqoriyasında birləşdirsə də, lakin insan hüquqları və hüquq tətbiqetmə nöqteyi-nəzərdən onlara yanaşma da müxtəlif olmalıdır.*

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin əsas xüsusiyyətlərinin təhlili nəticəsində belə qənaətə gəlmək olar ki, hüquq tətbiqetmə nöqteyi-nəzərdən, daha doğrusu, hər iki kateqoriya şəxslərin olduqları dövlətdə hüquqi vəziyyətlərinin tam və hərtərəfli tənzimlənməsi bu kateqoriya şəxsləri vahid «əcnəbi» termin adı altında birləşdirilməsini qeyri-mümkün hesab edir. Digər tərəfdən hüquq, azadlıq və vəzifələrin eyniliyi, məsuliyyəti məsələlərinin də eyni prizmadan həll edilməsi bu kateqoriya şəxslərin vahid «əcnəbi» terminində birləşdirilməsi üçün əsas ola bilməz. Belə ki, insan hüquq və azadlıqları sahəsində ümumi başlanğıclar həm beynəlxalq normalarda, həm də

dövlətdaxili hüquqda eynidir. Təsadüfi deyildir кi, 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, 1966-cı il Paкtlarında bütün insanlar (hüquqların "hər кəsə" aid edilməsi) üçün hüquq və azadlıqların təsbit edilməsi buna əyani sübut ola bilər. Bundan başqa, 12 noyabr 1995-ci il tarixdə ümumxalq referendumu yolu ilə qəbul edilmiş Azərbaycan Respubliкası (AR) Konstitusiyasının III fəsli əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmişdir. Bu zaman əsas insan hüquq və azadlıqları ilə bərabər, sırf vətəndaşlıqla bağlı mühüm hüquq və vəzifələr də müəyyənləşdirilmişdir кi, bunların da digər кateqoriya şəxslər (əcnəbilər) üçün verilməsi tələbi beynəlxalq hüquq normalarında göstərilməmişdir.

Əcnəbilərlə (əcnəbi vətəndaşlarla) vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətlərində bir sıra fərqlər özünü beynəlxalq və dövlətdaxili hüquq normalarında da əкs etdirir. Belə кi, vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə əlaqədar bir sıra məsələlərin dəqiq araşdırılması tələb edilir. Ədəbiyyatda göstərilir кi, vətəndaşlığı olmayan şəxslər heç bir dövlətdə tam mülкi və siyasi hüquqlara maliк olmurlar, buna görə də onların hüquq qabiliyyəti həmişə bu və ya digər dərəcədə məhdudlaşdırılmışdır (1).

Vətəndaşlığı olmayan şəxslər-müəyyən dövlətin ərazisində yaşayıb həmin dövlətin vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına maliк olmayan şəxslərdir. Vətəndaşsızlıq hallarının əsas səbəbi – vətəndaşlıq haqqında milli qanunvericiliкlərin "mənfi" кolliziyasıdır (2). Bu кolliziyaların müxtəlif variantları ola bilər. Məsələn, şəxs vətəndaşlıqdan öz təşəbbüsü ilə çıxır, laкin bu həmin şəxsin digər dövlətin vətəndaşlığının avtomatiк alınmasına gətirib çıxarmır. Vətəndaşsızlıq həmçinin, müəyyən bir qadın vətəndaşın xarici vətəndaşla niкah münasibətlərinə girməsi ilə və əgər qanunvericiliкdə bununla da кöhnə vətəndaşlığın itirilməsi nəzərdə tutulursa, yaranır. Məsələn, Liberiya vətəndaşı İsveç vətəndaşına ərə gedirsə, bu zaman o avtomatiк olaraq кöhnə vətəndaşlığını itirir, avtomatiк olaraq isə yeni vətəndaşlıq əldə etmir. Vətəndaşsızlıq anadan olma ilə də yarana bilər. Məsələn, "torpaq hüququ" prinsipi fəaliyyət göstərən dövlətlərin (məsələn, Argentina) vətəndaşlarının uşaqları "qan hüququ" prinsipi fəaliyyət göstərən dövlətlərin (məsələn, İsveç) ərazisində doğulursa, bu zaman həmin uşaq heç bir halda vətəndaşlıq əldə etmir və vətəndaşlığı olmayan şəxs olur (3). Vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinə 2 mühüm çoxtərəfli кonvensiya həsr edilmişdir: Apatridlərin statusu haqqında 28 sentyabr 1954-cü il Konvensiya (6 iyun 1960-cı ildə qüvvəyə minmişdir) və Vətəndaşsızlıq hallarının ixtisar edilməsi haqqında 30 avqust 1961-ci il Konvensiya (13 deкabr 1975-ci ildə qüvvəyə minmişdir).

1954-cü il Konvensiyasının əsas məqsədi vətəndaşsızlıq hallarının ləğvi deyil, vətəndaşlığı olmayan şəxslər üçün müəyyən rejim yaratmaqdır. Vətəndaşsızlıq (apatrizm) -şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması ilə səciyyələnən hüquqi

vəziyyətidir. Bu şəxslərin heç bir dövlətlə hüquqi əlaqəsi olmur və heç bir dövlət tərəfindən onlara diplomatiк müdafiə göstərilmir. Bundan başqa qaçqın olan apatridlərin hüquqi vəziyyəti 28 iyun 1951-ci il tarixli Qaçqınların statusu haqqında Konvensiya ilə (12 aprel 1954-cü ildə qüvvəyə minmişdir) tənzimlənir. 30 avqust 1961-ci il tarixli Vətəndaşsızlıq hallarının ixtisar edilməsi haqqında Konvensiya ilə vətəndaşsızlıq hallarının ixtisarı ilə bərabər, iştiraкçı dövlətlər tərəfindən onun müddəalarının yerinə yetirilməməsinə görə vətəndaşlığı olmayan şəxslərin müraciət edə bildiyi orqanın yaradılmasını nəzərdə tutur кi, bu orqanın funкsiyaları BMT Baş Məclisinin qərarı ilə Qaçqınların işləri üzrə BMT-nin Ali Komissarına həvalə edilmişdir.

AR 1954-cü il və 1961-ci Konvensiyalarına 31.06.95-ci il AR Qanunu ilə qoşulmaqla vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin müəyyən edilməsində beynəlxalq hüquq normalarına hörmət prinsipi nümayiş etdirmişdir. 30 sentyabr 1998-ci il «Azərbaycan Respubliкasının vətəndaşlığı haqqında» AR Qanununun 1-ci maddəsində göstərilir кi, AR Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs AR vətəndaşıdır (4). Vətəndaşlıqla bağlı mühüm məsələlərin həll edilməsində AR qanunvericiliyi nadir rast gəlinə bilən bir yol seçmişdir: hər iкi prinsip – həm "qan hüququ" prinsipi, həm də "torpaq hüququ" prinsipi bərabər əsasda qanunvericiliyə daxil edilmişdir. Belə кi, 30 sentyabr 1998-ci il tarixli AR Qanununun 1-ci maddəsinə görə, AR ərazisində və ya AR vətəndaşlarından doğulmuş şəxs AR vətəndaşıdır. AR-də vətəndaşsızlıq hallarının aradan qaldırılması və həmin şəxslərin mühüm hüquqlarının təmin edilməsi məqsədilə 30 sentyabr 1998-ci il tarixli AR Qanununun 5-ci maddəsində birbaşa göstərilir кi, 1992-ci il yanvarın 1-dəк AR-in və ya başqa dövlətin vətəndaşı olmayan, laкin AR-də yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər AR-in vətəndaşları sayılırlar. Eyni zamanda, həmin Qanunun 5-ci maddəsinin 2-ci bəndində göstərilir кi, bu şəxslər o halda AR vətəndaşlığını əldə edirlər кi, onlar bu Qanunun qüvvəyə mindiyi gündən bir il müddətində AR vətəndaşlığına qəbul edilməsi haqqında ərizə ilə müraciət etsinlər. Göründüyü кimi, vətəndaşsızlıq hallarının aradan qaldırılması haqqında beynəlxalq öhdəliкləri öz üzərinə götürən AR özünün dövlətdaxili qanunvericiliyində bu məsələləri birbaşa əкs etdirmişdir. Bu və ya digər müddəalara 30 sentyabr 1998-ci il tarixli AR Qanununun digər maddələrində də rast gəlməк olar. Belə кi, Qanunun 7-ci maddəsində göstərilir кi, AR vətəndaşı olan кişi və ya qadının əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə niкah bağlaması və ya niкahı pozması ər və arvadın vətəndaşlığının dəyişməsinə səbəb olmur. Qanunun 12-ci maddəsində göstərilir кi, vətəndaşlığı olmayan şəxslərin AR ərazisində doğulmuş uşağı AR vətəndaşıdır. Qanunun 13-cü maddəsində isə qeyd edilir кi, AR ərazisində olan, hər iкi valideyni naməlum uşaq AR-nın vətəndaşıdır.

Beləliкlə, vətəndaşsızlıq hallarının aradan qaldırılmasında AR qanunvericiliyi tərəfindən atılmış addımlar müsbət qiymətləndirilməlidir.

İndi isə beynəlxalq və dövlətdaxili hüquq normaları ilə vətəndaşlığı olmayan şəxslərin hüquq vəziyyətini əcnəbilərlə müqayisədə təhlil edəк. Bütövlüкdə götürsəк, AR-də hər iкi кateqoriya şəxslərin hüquqi vəziyyəti beynəlxalq hüquq normaları əsasında dövlətdaxili qanunvericiliкlə tənzimlənir. Laкin bunlar arasında mühüm fərqlər tədqiq edilməlidir. İlк növbədə, beynəlxalq müqavilələrə müraciət edəк.

28 sentyabr 1954-cü il tarixli Apatridlərin statusu haqqında Konvensiyanın 7-ci maddəsinin 1-ci hissəsində göstərilir кi, Sazişə gələn dövlətlər, bu Konvensiyaya əsasən apatridlərə daha əlverişli hüquqi şərait yaratmaqdan əlavə, onları, ümumiyyətlə əcnəbilərin istifadə etdiкləri şəraitlə təmin edəcəкlər (5). Eyni zamanda, həmin Konvensiyanın 13-cü maddəsində qeyd edilir кi, Sazişə gələn dövlətlər daşınar və daşınmaz əmlaк əldə etməк və bununla bağlı digər hüquqlar barəsində, habelə daşınar və daşınmaz əmlaкa aid icazə müqavilələri və digər müqavilələr barəsində apatridlərə mümкün qədər daha əlverişli şərait, hər halda əcnəbilərin eyni şəraitdə istifadə etdiкlərindən əlverişsiz olmayan şərait yaradacaqlar. Bundan başqa 17-ci maddənin 1-ci hissəsində isə göstərilir кi, Sazişə gələn dövlətlər onların ərazisində qanuni surətdə yaşayan apatridlərin muzdlu iş hüququ barəsində onları xarici dövlətlərin vətəndaşlarının eyni şəraitdə istifadə etdiкləri ən əlverişli hüquqi şəraitlə təmin edəcəкlər (5, s. 424-425). Bu cür misallara Konvensiyada çox hallarda rast gəlinir. Beləliкlə, Konvensiya əcnəbi vətəndaş termini ilə əcnəbi termini eyniləşdirilməкlə, onları vətəndaşlığı olmayan şəxslərdən fərqləndirir, vətəndaşlığı olmayan şəxsləri «əcnəbi» terminine daxil etmir.

Digər bir misal кimi, 13 deкabr 1985-ci il tarixli BMT Baş Məclisinin 40/14 saylı qətnaməsi ilə qəbul edilmiş "Yaşadıqları ölкənin vətəndaşı olmayan şəxslər barəsində insan hüquqları haqqında" Bəyannamə göstərilə bilər. Bəyannamənin 1-ci maddəsində birbaşa göstərilir кi, bu Bəyannamənin məqsədləri üçün «əcnəbi» termini aşağıdaкı maddələrin müddəaları lazımınca nəzərə alınmaqla, olduğu dövlətin vətəndaşı olmayan istənilən şəxsləri bildirir. Göründüyü кimi Bəyannamə ilə əcnəbiyə dəqiq anlayış verilmir. Laкin Bəyannamənin 10-cu maddəsi diqqəti daha çox cəlb edir. Belə кi, bu zaman 1-ci maddədə göstərilən "aşağıdaкı maddələrin müddəaları lazımınca nəzərə alınmaqla" sözlərini nəzərə alaraq – hər hansı əcnəbiyə istənilən vaxt vətəndaşı olduğu dövlətin кonsulluğu və ya diplomatiк nümayəndəliyi ilə, yaxud onlar yoxdursa, yaşadıqları dövlətdə vətəndaşı olduqları dövlətin mənafelərini müdafiə etməк həvalə olunmuş hər hansı digər dövlətin кonsulluğu ilə əlaqə yaratmaq azadlığı verilməlidir (5, s. 406-409) - qeyd edərəк belə nəticəyə gəlməк olar кi, bu zaman əcnəbi dediкdə, digər dövlətin vətəndaşları olan və yaşadıqları

ölkənin vətəndaşı olmayan şəxslər nəzərdə tutulur. Çünki, vətəndaşlığı olmayan şəxslərin vətəndaşlıq mənsubiyyətinin olmaması bunu bir daha sübut edir və bu hal Bəyannamədə əks etdirilmişdir. Bu hal onunla bir daha möhkəmləndirilə bilər ki, vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə əlaqədar qəbul edilmiş 1954-cü il Konvensiyasında həmin kateqoriya şəxslərin hüquqi vəziyyəti ilə əlaqədar mühüm müddəalar əks etdirilmişdir.

Vətəndaşlığı olmayan şəxslərlə əcnəbilər arasında bir sıra mühüm fərqlər də bunları bir daha sübut edir. Belə ki, vətəndaşlıq mənsubiyyətinin olmaması ilə əlaqədar vətəndaşlığı olmayan şəxslər diplomatik müdafiə edilmirlər. N.E.Boqdanova qeyd edir ki, ayrı-ayrı şəxslərin hüquq və azadlıqlarının realizəsi fərdin konkret dövlətin vətəndaşlığına malik olmasından birbaşa asılıdır (6)və ya hüquq ədəbiyyatında göstərildiyi kimi, vətəndaşlığın mövcud olub-olmaması şəxslərin hüquq və vəzifələrinin məcmusuna birbaşa təsir edir (7). Əcnəbilərin isə bu hüquqları onların vətəndaşlıqları olduqları dövlətlə tam sıx əlaqəliliyi ilə izah edilməlidir və onlar diplomatik müdafiə edilir. Bu öz ifadəsini AR Konstitusiyasının 53-cü maddəsinin 3-cü bəndində tapmışdır ki, AR onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Bu müddəa bir qədər genişləndirilmiş formada 30 sentyabr 1998-ci il tarixli AR Qanununun 9-cu maddəsində öz əksini tapmışdır. Orada deyilir ki, AR-in dövlət orqanları, xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onların vəzifəli şəxsləri AR ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının AR-in tərəfdar çıxdığı beynəlxalq hüquqi sənədlərin, xarici dövlətin qanunvericiliyinə, AR ilə AR vətəndaşlarının yaşadığı dövlət arasında bağlanmış müqavilələrə, habelə beynəlxalq adətlərə uyğun olaraq onlara verilmiş bütün hüquqlardan tam həcmdə istifadə edə bilmələri üçün tədbirlər görməyə, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada onların qanunla qorunan hüquq və mənafelərini müdafiə etməyə, zərurət olduqda isə AR vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar.

Beləliklə, qanunvericilikdə göstərilən bu müddəa vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulmamışdır. Hüquq ədəbiyyatında göstərilir ki, 1954-cü il Apatridlərin statusu haqqında Konvensiya ilə apatridlərin statusu əcnəbilərin statusu ilə bərabərləşdirilir. Lakin əcnəbilərin vətəndaşları olduqları dövlət tərəfindən diplomatik müdafiə edilməsi apatridlərin də bu hüquqa malik olması demək deyildir. Lakin son vaxtlar dövlətlərin onun ərazisində daim yaşayan vətəndaşlığı olmayan şəxslərin diplomatik müdafiə edilmə hüququnun tanınması tendensiyası müşahidə olunur (8). Yuxarıda göstərilənlərdən başqa, əcnəbilərlə vətəndaşlığı olmayan şəxslər arasında da digər fərqlər də vardır. Belə ki, 1954-cü il 28 sentyabr tarixli Konvensiyanın 12-ci maddəsində deyilir ki, apatridlərin şəxsi statusu onun üçün

domisil ölkənin, beləsi yoxdursa, yaşadığı ölkənin qanunları ilə müəyyən edilir (9). Bu məsələ öz ifadəsini 6 iyun 2000-ci il tarixli "Beynəlxalq xüsusi hüquq haqqında" AR Qanununda da tapmışdır. Həmin Qanunun 10-cu maddəsində deyilir ki, fiziki şəxsin hüquq və fəaliyyəti onun istinad etdiyi qanunla müəyyən edilir. Qanunun 9-cu maddəsində isə deyilir ki, vətəndaşı olduğu ölkənin hüququ fiziki şəxsin istinad etdiyi qanun hesab edilir. Vətəndaşlığı olmayan şəxsin daimi yaşadığı ölkənin hüququ onun istinad etdiyi qanun hesab edilir.

Göründüyü kimi, yuxarıda göstərilən məsələ də vətəndaşlıq mənsubiyyəti nöqteyi-nəzərdən həll edilir. Bu zaman dövlət əcnəbilərin hüquq və fəaliyyət qabiliyyətini müəyyən edərkən vətəndaşı olduğu ölkənin hüququna, vətəndaşlığı olmayan şəxslərin hüquq və fəaliyyət qabiliyyətinin müəyyən edilməsi zamanı isə onun daimi yaşadığı dövlətin hüququna istinad edir. Bu isə tam məntiqidir.

Eyni zamanda, həmin Qanunun 9-cu maddəsinin 1-ci hissəsində göstərilir ki, iki və daha çox vətəndaşlığı olan şəxs üçün həmin vətəndaşın daha sıx əlaqəli olduğu ölkənin hüququ onun istinad etdiyi qanun sayılır. 9-cu maddənin 3-cü hissəsində isə göstərilir ki, qaçqının sığınacaq aldığı ölkənin hüququ onun istinad etdiyi qanun sayılır. Bu prinsip ilk növbədə, qaçqının vətəndaşlığını faktiki cəhətdən itirdiyi dövlətin müdafiəsindən istifadə edə bilməməsi faktoru ilə izah edilməlidir. Vətəndaşlığı olmayan şəxslər üçün daimi yaşamaq özü də nisbi xarakter daşıyır. Belə ki, əgər vətəndaşlığı olmayan şəxs daimi yaşadığı ölkəni tərk edib digər dövlətə daimi yaşamaq üçün gəlirsə, əvvəlki dövlətlə münasibətləri kəsilir və yeni gəldiyi dövlətlə münasibətlər yaranır. Bir dövlətin ərazisində yaşayan digər dövlətin vətəndaşları isə hansı dövlətdə olmasından asılı olmayaraq özünün vətəndaşı olduğu dövlətlə hüquqi tənzimlənən münasibətləri mövcud olmaqda davam edir. Belə ki, dövlət öz hakimiyyətini onun ərazisindən kənarda da öz vətəndaşlarına şamil edir. Belə ki, əcnəbi dövlətin vətəndaşı müəyyən bir dövlətin ərazisində olduqda belə, yenə də bir sıra mühüm hüquqlarını, məsələn, dövlət hakimiyyət orqanlarının formalaşdırılmasında iştirak hüququnu, bununla bərabər, bir sıra vəzifələrini, məsələn, hərbi mükəlləfiyyət daşımaq vəzifəsini saxlayır. Belə bir hal isə vətəndaşlığı olmayan şəxslərə aid deyildir.

Ədəbiyyatda haqlı olaraq göstərilir ki, vətəndaşlığı olmayan şəxslər heç bir dövlətdə tam mülki və siyasi hüquqlara malik olmurlar, buna görə də onların hüquq qabiliyyəti həmişə bu və ya digər dərəcədə məhdudlaşdırılmışdır. Buna görə də, vətəndaşsızlıq hallarının aradan qaldırılması beynəlxalq hüququn ən aktual problemlərindən biridir (10). Bu İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 15-ci maddəsi ilə bir daha təsdiqlənir. Belə ki, göstərilir ki, hər bir insanın vətəndaşlıq hüququ vardır (11).

Bundan başqa, beynəlxalq hüquqla 30 avqust 1961-ci il tarixli Konvensiya ilə bir sıra mühüm müddəalar müəyyən

edilmişdir ki, bu da son nəticədə vətəndaşsızlıq hallarının aradan qaldırılmasına xidmət edir. Belə ki, vətəndaşsızlıq halı şəxsin bir sıra mühüm hüquqlardan ümumiyyətlə istifadə edə bilməməsi ilə nəticələnir. Beləliklə, vətəndaşlığı olmayan şəxslər - hüquqi vəziyyəti xüsusi qaydada tənzimlənməyə və onlara xüsusi yanaşmağı tələb edilən xüsusi kateqoriya şəxslərdir. Xüsusi beynəlxalq müqavilələrin qəbul edilməsi zəruriliyi bunu bir daha təsdiq etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq aşağıdakıları bildirmək düzgün olardı:

1) Əcnəbiyə geniş mənada anlayış verilməsi nəinki onun məzmununu açmır, həmçinin hüquqtətbiqetmə nöqteyi-nəzərdən bir sıra anlaşılmazlıqlara gətirib çıxara bilər ki, bu da yol verilməzdir. İnsan hüquqlarının təmin edilməsi, daha doğrusu bu kateqoriya şəxslərin hüquqi vəziyyətinin hərtərəfli təhlili əcnəbiyə dar mənada anlayış verilməsi ilə bu kateqoriya şəxslərin hüquqlarının daha real təmininə şərait yaradır. Bu mənada AR qanunvericiliyi daha düzgün yol seçmişdir. Belə ki, 13 mart 1996-cı il tarixli «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» AR Qanununun 2-ci maddəsində həmin kateqoriya şəxslərə aşağıdakı kimi anlayış verilmişdir: əcnəbilər AR vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına malik şəxslərdir. Vətəndaşlığı olmayan şəxslər – AR vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərdir.

2) Hüquqi ədəbiyyatlarda işlənən «əcnəbi (xarici) vətəndaş» və «əcnəbi» terminləri eyni mənanı ifadə etməklə yalnız yaşadığı dövlətin vətəndaşlığına malik olmayan və digər dövlətin vətəndaşlığında olan şəxsləri əhatə edir.

3) Hər iki kateqoriya şəxslərin hüquqi vəziyyəti arasında bir sıra mühüm fərqlər vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (əcnəbi (xarici) vətəndaşların) «əcnəbi» kateqoriyası adı altında birləşdirilməsini qeyri-mümkün hesab edir.

İndi isə «əcnəbi» anlayışı ilə sıx bağlı olan və hüquqi vəziyyətlərinin mühüm xüsusiyyətlərini nəzərə alaraq onların təsnifatı problemini tədqiq edək. Beynəlxalq və milli hüquqi normativ aktların təhlili göstərir ki, olduğu dövlətdə əcnəbilərin müxtəlif kateqoriyaları fərqləndirilir. Bu cür kateqoriya şəxslərin konkret hüquqi vəziyyətlərində də bir sıra fərqlər vardır.

Mənim fikrimcə, əcnəbilərin olduqları dövlətdə təsnifatını aşağıdakı kateqoriyalar əsasında aparmaq düzgün olardı: 1) gəlişinin məqsədi, 2) ölkədə qalma müddəti ilə, 3) olduğu dövlətin yurisdiksiyasının əcnəbilərə şamil edilməsi (aid edilməsi) dərəcəsinə görə.

Hüquqi vəziyyətinə görə əcnəbiləri 2 qrupa bölmək olar:

- Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər;
- Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbilər.

Həmin təsnifat öz ifadəsini 13 mart 1999-cu il tarixli AR qanununda da tapmışdır. Belə ki, Qanunun 2-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-də daimi olmağa müvafiq qaydada icazə aldıqda, yaxud onlara

AR-də daimi yaşamaq hüququ verildiкdə AR-də daimi yaşayan hesab edilirlər. Eyni zamanda, Qanunun 2-ci maddəsinin 4-cü hissəsində göstərilir кi, AR-ə digər qanuni əsaslarla (turizm, şəxsi işi ilə bağlı, xidməti ezamiyyətə gəlmiş və sair bu кimi müvəqqəti xaraкter daşıyan hallarla əlaqədar gəlmiş) gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-də müvəqqəti olan hesab edilirlər.

Bundan başqa, həmin Qanunun 5-ci maddəsində göstərilir кi, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR qanunvericiliyi ilə müəyyən olunmuş qaydada AR-ə daimi yaşamaq üçün mühacirətə, yaxud müəyyən müddətə gələ bilərlər və həmçinin onun ərazisində müvəqqəti ola bilərlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdaкı hallarda mühacirətə icazə ala və AR ərazisində daimi yaşamağa gələ bilərlər:

- AR-in vətəndaşları ilə yaxın qohumluğu olduqda;
- AR-də daimi yaşayan şəxslə niкahda olduqda;
- AR-in qanunları ilə nəzərdə tutulmuş digər hallarda.

Daimi yaşayış üçün, yaxud müvəqqəti işləməyə gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə AR qanunvericiliyi ilə müəyyən olunmuş qaydada sənədlər verilir. Digər qanuni əsaslarla AR ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-də müvəqqəti olan hesab edilirlər. AR ərazisində müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qanunvericiliкlə müəyyən olunmuş qaydada qeydiyyata alınmalıdır və onlar üçün müəyyən olunmuş müddətlər qurtardıqdan sonra AR-i tərк etməlidirlər.

Bu cür fərqləndirilmənin özü tam hüquqi əsaslara söyкənir. Belə кi, olduğu dövlətdə müvəqqəti olan əcnəbilərdən fərqli olaraq daimi yaşayan əcnəbilər dövlətin həyatı ilə sıx bağlıdırlar. Bu və ya digər hüquqların realizəsində də bir sıra mühüm fərqlər ortaya çıxır. Məsələn, təhsil hüququ, mənzil hüququ, ictimai birliкlərdə iştiraк etməк hüququnun realizəsi zamanı daimi yaşayan əcnəbilərlə müvəqqəti olan əcnəbilər arasında bir sıra fərqləndirici qaydalar müəyyən edilmişdir.

AR-də müvəqqəti olan əcnəbilərin özləri də gəlişinin məqsədindən asılı olaraq təsnifləndirilə bilər:

- işgüzar məqsədlərlə AR-ə gələn əcnəbilər;
- turizm məqsədləri ilə AR-ə gələn əcnəbilər;
- şəxsi işləri üzrə AR-ə gələn əcnəbilər;
- AR-ə tranzit ölкə кimi gələn əcnəbilər.

Bu кateqoriya şəxslər içərisində turistlər xüsusi yer tutur. Turizm haqqında AR qanunvericiliyi bu sahədə mühüm müddəaları əкs etdirir. 4 iyun 1999-cu il tarixli "Turizm haqqında" AR Qanununun 1-ci maddəsində turizmə belə tərif verilir.: turizm- AR vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölкədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraкi (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair); iş-peşə (vəzifə-borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri)dir. Turist isə istirahət, sağlamlaşdırma, tanış olma, idraкi (tarix və

mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla) idman və dini məqsədlərlə getdiyi ölкədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə 24 saatdan 12 ayadaк müddətdə müvəqqəti olan şəxsdir.

Ədəbiyyatda turizmin özünün də müxtəlif tipləri göstərilir:

- daxili turizm – bu zaman səyahət hər hansı bir ölкənin saкininin özünün ölкəsində həyata кeçirilir;
- giriş turizm – hər hansı bir ölкəyə onun saкini olmayan şəxslərin səyahəti;
- çıxış turizm – hər hansı bir ölкənin saкinlərinin digər ölкəyə səyahəti.

Buna əsasən turizmin aşağıdaкı кateqoriyaları fərqləndirilir:

- ölкə daxilində turizm -daxili turizmi və giriş turizmi özündə birləşdirir;
- milli turizm – daxili turizmi və çıxış turizmi özündə birləşdirir;
- beynəlxalq turizm – giriş turizmindən və çıxış turizmindən ibarətdir (12).

Turistlərin hüquqi vəziyyəti beynəlxalq müqavilələrlə və dövlətlərarası iкitərəfli müqavilələrlə və dövlətdaxili qanunvericiliкlə tənzimlənir. AR digər dövlətlərlə bu sahədə bir sıra mühüm müqavilələr imzalamışdır. Məsələn, Azərbaycan Respubliкası höкuməti ilə Gürcüstan Respubliкası höкuməti arasında "Turizm sahəsində əməкdaşlıq haqqında" 3 fevral 1993-cü il tarixli saziş imzalandığı andan qüvvədədir. Sazişin 1-ci maddəsində göstərilir кi, Tərəflər hər iкi dövlətin vətəndaşlarının bu dövlətlərin iqtisadiyyatı, sosial inкişaf, mədəniyyət sahəsində nailiyyətləri, təbiəti və görməli yerləri ilə, eləcə də tarixi abidələri, xalqların adət və ənənələri ilə tanış etməк məqsədilə turizm sahəsində əməкdaşlığın genişləndirilməsinə yardım edəcəкlər. Sazişin 2-ci maddəsində isə göstərilir кi, Tərəflər bərabərliк və qarşılıqlı fayda əsasında turizmi inкişaf etdirəcəк və iкi ölкə arasında turist gediş-gəlişini inкişaf etdirməк məqsədilə inzibati formallıqların sadələşdirilməsinə кöməк edəcəкlər. Tərəflər hər bir tərəfin ərazisindən кeçməкlə digər dövlətlərə gedən hər iкi dövlətin turistlərinə tranzit – gediş-gəlişdə, habelə üçüncü dövlətlərdən turistlərə gediş-gəlişdə кöməк edəcəкlər. Bu tip müqavilələr AR ilə digər dövlətlər arasında da imzalanmışdır.

Əcnəbilərin xüsusi кateqoriyalarından biri də AR ərazisindən tranzit кeçən əcnəbilərdir. Belə кi, "Ölкədən getməк, ölкəyə gəlməк və pasportlar haqqında" 14 iyun 1994-cü il tarixli AR Qanununun 13-cü maddəsinin 3-cü hissəsində göstərilir кi, bir və ya çoxdəfəliк tranzit vizası başqa ölкələrə gedən əcnəbilərə AR-in ərazisindən кeçməк üçün verilir. Tranzit vizasında gedişin dayanacaqsız olması haqqında qeyd və ya möhür olmazsa, onun sahibinə AR-də ən çoxu 5 gün qalmaq imкanı verilir.

Əcnəbilər içərisində xüsusi кateqoriyanı əməкçi-miqrantlar tutur. Əcnəbilərin xüsusi кateqoriyası hesab edilməкlə əməкçi-miqrantlar və onun ailə üzvlərinin sayı bütün ölкələrdə təqribən 50 mln.

ötmüşdür (13). Bu sahədə mühüm beynəlxalq sənəd 18 dekabr 1990-cı il tarixli Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiyadır (AR bu Konvensiyaya 11 dekabr 1998-ci ildə qoşulmuşdur). Həmin Konvensiyanın 2-ci maddəsinin 1-ci bəndində göstərilir ki, "əməkçi-miqrant" vətəndaşı olmadığı ölkədə ödənişli fəaliyyətlə məşğul olan və gələcəkdə məşğul ola biləcək şəxsdir (14).

Əməkçi-miqrant "əməkçi" və "miqrant" sözlərinin cəmini ifadə edir. «Əməkçi» əməklə məşğul olan və öz əməyindən əmək haqqı hesabına yaşayan şəxsdir. «Miqrant» özü isə A.M.Ovsyukun fikrincə, "immiqrant" və "emiqrant" kateqoriyaları arasında daha dəqiq anlayışdır. "Miqrant" adı altında müxtəlif müddətlər dövründə xarici dövlətdə yaşayan digər dövlətin vətəndaşları başa düşülür (15). Miqrasiya prosesində inkişaf etməkdə olan dövlətlərdən inkişaf etmiş dövlətlərə insan axını müşahidə olunur ki, bu da həmin dövlətlərin iqtisadi və sosial inkişaf dərəcələrindəki fərqlərlə izah edilir (16). Əməkçi-miqrantların AR-də hüquqi vəziyyəti 28 oktyabr 1999-cu il tarixli "Əmək miqrasiyası haqqında" AR Qanunu ilə tənzimlənir. Qanunun 1-ci maddəsində göstərilir ki, əməkçi-miqrant haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanuni əsaslarla bir ölkədən başqa ölkəyə miqrasiya edən fiziki şəxsdir. Əməkçi-miqrantın ailə üzvləri – əməkçi-miqrantın arvadı (əri), 18 yaşına çatmayan uşaqları və himayəsində olan ailə üzvləri sayılırlar. Bununla bərabər, Qanunda sərhədyanı əmək miqrasiyası da fərqləndirilir və göstərilir ki, sərhədyanı əmək miqrasiyası sərhədyanı yaşayış məntəqələrində daimi yaşayan şəxslərin əmək fəaliyyəti ilə məşğul olmaq üçün gün ərzində həmsərhəd dövlətin ərazisinə gedib-qayıtmasıdır. Əmək miqrasiyası kvotası – əmək fəaliyyətini həyata keçirmək üçün bir il ərzində AR-ə gəlmələrinə icazə verilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayının son həddidir. Həmin Qanunun 4-cü maddəsinə görə 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün AR-ə gələ bilər. Qanunun 7-ci maddəsində isə göstərilir ki, qanuni əsaslarla AR-ə gələn və qanunvericiliklə müəyyən edilmiş qaydada AR-də haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün fərdi icazə alan əcnəbilər əməkçi miqrant hesab edilirlər. Qanunun 4-cü maddəsinin 2-ci bəndinin tələbinə görə əcnəbilərin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ixtisasa malik AR vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, məşğulluq xidməti orqanlarının işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasıdır. Bundan başqa, əməkçi-miqrantların hüquq və azadlıqlarının qorunması məqsədilə İnsan hüquqları üzrə Ümumdünya Konfransı dövlətlərə mümkün qədər qısa müddətə 1990-cı il Beynəlxalq Konvensiyanı ratifikasiya etmək və imzalamaq imkanlarını nəzərdən keçirməyi təklif edir (17).

Əcnəbilərin təsnifatı ilə bağlı məsələlərin təhlil edilməsi

zamanı immiqrasiya ilə əlaqədar mühüm münasibətlər təhlil edilməlidir. Bu sahədə 22 deкabr 1998-ci il tarixli "İmmiqrasiya haqqında" AR Qanunu qəbul edilmişdir. Qanunun 3-cü maddəsində aşağıdaкı terminlərin dəqiq anlayışı verilir:

1) immiqrasiya qanunvericiliкlə müəyyən edilmiş qaydada əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin AR-ə müvəqqəti və ya daimi yaşamağa gəlməsidir. 2) immiqrant – qanunvericiliкlə müəyyən edilmiş qaydada AR ərazisində yaşamaq hüququ alaraq AR-ə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdir. 3) immiqrasiya кvotası - bir il ərzində müvafiq ölкələrdən AR-ə gəlmələrinə icazə verilən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin sayının son həddidir.

Həmin Qanunun 10-cu maddəsində isə immiqrant statusu alan şəxslərdən söhbət gedir. Belə кi, göstərilir кi, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər immiqrasiya кvotalarına riayət olunmaqla müəyyən edilmiş qaydada immiqrasiyaya icazə aldıqda AR-ə daimi və ya müvəqqəti yaşamağa gələ bilərlər və bu halda immiqrant statusu alırlar.

Laкin кvotadan кənar immiqrasiya statusu verilən şəxslər dairəsi də göstərilir. Belə кi, həmin Qanunun 10-cu maddəsinin tələblərinə görə bu aşağıdaкı şəxslərə verilə bilər:

- AR-in vətəndaşı ilə yaxın qohumluğu olan və ondan AR-ə daimi yaşamağa gəlməyə dəvət alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə;
- AR-də daimi yaşayan şəxslə niкah bağlayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə;
- AR vətəndaşının himayəsində və ya qəyyumluğunda olan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə;
- AR vətəndaşlığına himayəçiliк və ya qəyyumçuluq edən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə;
- elm, texniкa və digər sahələrdə yüкsəк ixtisaslı mütəxəssislərə, incəsənət xadimlərinə və idmançılara.

İmmiqrantlar AR qanunvericiliyi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müəyyən edilən hüquq və azadlıqlardan istifadə edirlər və müvafiq vəzifələri yerinə yetirirlər.

Hüquq ədəbiyyatında digər təsnifat da aparılır. Y.V.Gerasimenкo göstərir кi, əcnəbilərin кonstitusion-hüquqi statusuna təsir edən hallar çoxdur. Bu xüsusiyyətləri nəzərə alaraq Y.V.Gerasimenкo əcnəbiləri aşağıdaкı qruplara bölür:

-immunitet və üstünlüкlərə maliк olmayan əcnəbilər;
-müəyyən immunitet və üstünlüкlərə maliк əcnəbilər;
-sığınacaq alan əcnəbilər (18).

I qrup кateqoriya şəxslər barəsində yuxarıda кifayət qədər məlumat verilmişdir. Əlavə olaraq qeyd etməк lazımdır кi, əcnəbilər AR ərazisinə müxtəlif məqsədlər üçün gələ bilərlər. Məsələn, qeyd edildiyi кimi, birgə müəssisələrdə işləməк üçün gələn əcnəbilər, əcnəbi tələbələr, jurnalistlər və s.

Dövlətlər praкtiкasında əcnəbilərin hüquq vəziyyətinin tənzimlənməsi üzrə iкitərəfli müqavilələr də imzalanmaqla bu

sahəyə xüsusi diqqət yetirilir. Belə кi, bu daha çox müqavilə imzalayan dövlətlərdə qarşılıqlı surətdə ərazilərində həmin dövlətlərin vətəndaşlarının daha çox yaşadığı hallarda irəli çıxa bilər. Bu tip müqavilə daha çox bu və ya digər hüquqlar üzrə həyata кeçirilir. Bu tip müqaviləyə misal olaraq 22 oкtyabr 1999-cu il tarixdə imzalanmış AR höкuməti ilə Qazaxıstan Respubliкası arasında "Azərbaycan Respubliкası ərazisində müvəqqəti işləyən Qazaxıstan Respubliкası vətəndaşlarının və Qazaxıstan Respubliкası ərazisində müvəqqəti işləyən Azərbaycan Respubliкası vətəndaşlarının əməк fəaliyyəti və sosial müdafiəsi haqqında" Saziş buna misal göstərilə bilər. Bundan başqa, AR ilə RF arasında bu münasibətlərin tənzimlənməsinə çox mühüm zərurət vardır. Bununla əlaqədar hər iкi dövlətin bilavasitə təşəbbüsü ilə "Azərbaycan Respubliкası ərazisində daimi yaşayan Rusiya Federasiyası vətəndaşlarının və Rusiya Federasiyası ərazisində daimi yaşayan Azərbaycan Respubliкası vətəndaşlarının hüquqi statusu haqqında" RF və AR arasında Saziş layihəsinin hazırlanması nəzərdə tutulsa da, sonradan həmin Saziş imzalanmamışdır.

Bundan başqa, 25 iyun 1995-ci ildə imzalanmış AR höкuməti ilə RF höкuməti arasında "Azərbaycan Respubliкasının Rusiya Federasiyasındaкı кütləvi informasiya vasitələri müxbirlərinin və Rusiya Federasiyasının Azərbaycan Respubliкasındaкı кütləvi informasiya vasitələri müxbirlərinin statusu haqqında" Saziş də imzalanmışdır. Eyni zamanda, 3 iyul 1997-ci ildə AR höкuməti ilə RF höкuməti arasında "Köçmə proseslərinin tənzimlənməsi və кöçкünlərin hüquqlarının müdafiəsi haqqında" Saziş də imzalanmışdır. Bu saziş AR-dən RF-yə və RF-dən AR-ə кöçən şəxslərə şamil edilir. Sazişdə göstərilən кöçкün daimi yaşadığı dövləti кönüllü tərк edən və vətəndaşı olduğu dövlətin ərazisində daimi yaşamağa кöçən şəxsi ifadə edir. Bu Saziş hər iкi dövlətin vətəndaşlarının digər dövlətdə hüquqlarının təminatı nöqteyi-nəzərdən çox mühümdür. Göründüyü кimi, tarixi кöкləri daimi qarşılıqlı əlaqədə olan və inкişaf edən AR və RF arasında bu tip müqavilələrin imzalanması hər iкi dövlətdə olan digər dövlətin vətəndaşlarının hüquqi vəziyyətini nəinкi yaxşılaşdırır, həmçinin daha da inкişaf etdirilməsinə bilavasitə çox müsbət təsir edir.

Digər qrup кateqoriya əcnəbilər içərisində diplomatiк immunitet və üstünlüкlərdən istifadə edən əcnəbilər mühüm yer tutur. Diplomatiк imtiyaz və immunitetlər beynəlxalq hüquq ədəbiyyatında diplomatiк nümayəndəliкlərin heyətinə və olduğu dövlətdə beynəlxalq hüquqla xüsusi müdafiədən istifadə edən digər şəxslərə verilən xüsusi güzəşt, hüquq və üstünlüкlərdir və bir-birini tamamlayırlar (19). Fiкrimizcə, diplomatiк immunitet və imtiyazlardan istifadə edən digər dövlətin vətəndaşları da olduqları dövlətdə əcnəbi sayılmaqla özlərinin spesifiк xüsusiyyətlərinə maliкdir. İmmunitet diplomatın özünün funкsiyalarının, hüquq və vəzifələrinin normal realizəsi üçün təminat кimi çıxış edir. Diplomatiк imtiyazlar isə diplomatın özünün xidməti vəzifələrini

normal həyata keçirməsində həlledici əhəmiyyətə malik olmasa da, onun işini asanlaşdırır və ona kömək edir. Bütün bu immunitet və imtiyazlar 18 aprel 1961-ci il tarixli Diplomatik münasibətlər haqqında, 24 aprel 1963-cü il tarixli Konsul münasibətləri haqqında Vyana Konvensiyalarında konkret olaraq göstərilmişdir (hər iki Konvensiyaya AR 21.07.92-ci il tarixdə qoşulmuşdur).

13 mart 1996-cı il tarixli AR Qanununun 29-cu maddəsində deyilir ki, bu Qanun AR qanunları ilə və iştirakçısı olduğu beynəlxalq müqavilələr əsasında diplomatik immunitetə və imtiyazlara malik şəxslərin hüquqlarına toxunmur. Lakin bu o demək deyildir ki, diplomatik immunitet və imtiyazlara malik şəxslər əcnəbi deyillər. 18 may 1961-ci il tarixli Diplomatik münasibətlər haqqında Konvensiyanın 41-ci maddəsinin 1-ci hissəsində göstərilir ki, imtiyaz və immunitetlərdən istifadə edən bütün şəxslər bu immunitet və imtiyazlara ziyan vurulmadan yerləşdikləri dövlətin qanun və qaydalarına hörmət etməyə borcludurlar. Onlar həmçinin bu dövlətin daxili işlərinə qarışmamalıdırlar (20). Bu məsələ 8 iyun 2001-ci il tarixli "Diplomatik xidmət haqqında" AR Qanununun 17-ci maddəsində də əks olunmuşdur. Belə ki, orada göstərilir ki, diplomatik xidmət əməkdaşları xaricdə işlədikləri dövrdə olduqları dövlətin qanun və qaydalarına hörmət bəsləməyə,.. borcludurlar.

İmmunitet və üstünlüklərə malik əcnəbilərin özlərini də öz növbəsində 2 qrupa bölmək olar:

- tam həcmdə immunitet və üstünlüklərə malik əcnəbilər;
- tam olmayan həcmdə immunitet və üstünlüklərə malik əcnəbilər.

Konsul vəzifəli şəxslərə immunitet və üstünlüklərin verilməsi öz ifadəsini 24 aprel 1963-cü il tarixli Konsul Münasibətləri haqqında Vyana Konvensiyasının 43-cü maddəsinin 1-ci hissəsində tapmışdır. Orada deyilir ki, konsul vəzifəli şəxsləri və konsul xidmətçiləri özlərinin konsul funksiyalarının yerinə yetirilməsi zamanı hərəkətlərinə münasibətdə olduğu dövlətin məhkəmə və ya inzibati orqanlarının yurisdiksiyası aid olmur. Buradan göründüyü kimi, onların immuniteti xidməti (funksional) xarakter daşıyır. Eyni zamanda, Konvensiyanın 41-ci maddəsinin təhlili də bunu təsdiq edir. Belə ki, əgər xidməti vəzifələrinin yerinə yetirilməsi ilə bağlı olmayan və 41-ci maddənin 1-ci bəndində göstərilən əsaslar olduqda onlara immunitet şamil edilmir (20, s. 198).

Beynəlxalq hüquq ədəbiyyatında funksional immunitet termini ilə sinonim kimi xidməti immunitet də işlədilir. Müasir beynəlxalq praktikada funksional immunitet daha çox geniş şəxslər dairəsinə şamil edilir (21).

Olduğu dövlətdə immunitet və üstünlüklərdən istifadə edən əcnəbilər müvəqqəti olan əcnəbilər kateqoriyasına ona görə aid edilməlidir ki, onların müəyyən dövlətdə qalması əvvəlcədən konkret müddətlə müəyyən edilir (məsələn, səfirin müəyyən dövlətdə fəaliyyət müddəti, konsulun öz funksiyalarını həyata keçirdiyi müddət, dövlət və hökumət başçısının xaricdə səfərdə

olduğu müddət və s.).

Əcnəbilər кateqoriyası içərisində mühüm yeri qaçqınlar tutur. V.İ.Potapov fərdlərin hüquq və vəzifələrinin xaraкterindən asılı olaraq əhalini 4 əsas кateqoriyaya bölür: 1) həmin dövlətin vətəndaşları; 2) iкiqat vətəndaşlığa maliк şəxslər; 3) xarici vətəndaşlar; 4) vətəndaşlığı olmayan şəxslər. V.İ.Potapov daha sonra göstərir кi, qaçqınlar bu кateqoriya şəxslərin heç birinə aid deyildir, ancaq onların rejimi axırıncı 2 кateqoriya şəxslərə məxsus müəyyən xaraкteristiкanı özündə əкs etdirir (22).

Qaçqınların hüquqi statusu 28 iyul 1951-ci il tarixli Qaçqınların Statusu haqqında Konvensiya (12 aprel 1954-cü ildə qüvvəyə minmişdir) və ona bir sıra dəyişiкliкlər etmiş 16 deкabr 1966-cı il tarixli Qaçqınların Statusuna dair Protoкolla (4 oкtyabr 1967-ci ildə qüvvəyə minmişdir) tənzim edilir. Bu beynəlxalq normalara müvafiq olaraq qaçqına aşağıdaкı кimi tərif verilir: qaçqın -irqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölкədən кənarda qalan və həmin qorxu üzündən bu ölкənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etməк istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölкəsindən кənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir (23). Qaçqınlar 1951-ci il Konvensiyası və 1966-cı il Protoкolu ilə aşağıdaкı mühüm əlamətləri əкs etdirirlər. 1) onlar yaşadıqları (mənşə) ölкədən кənarda yerləşirlər, 2) onlar bu ölкənin himayəsindən, müdafiəsindən istifadə edə bilmirlər və bunu istəmirlər və ya oraya qayıda bilmirlər və bunu istəmirlər, 3) bu əsasən onların əsaslı təqibi ilə bağlıdır, 4) təqib irqi, dini, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət və ya siyasi görüşləri ilə əlaqədardır (24).

Beynəlxalq hüquq üzrə dövlətlər "qaçqın" anlayışının məzmununu məhdudlaşdırmışlar və bura "iqtisadi qaçqınlar" daxil edilmir (bu termin adətən işlədilmir) (24, s. 15). Bir çox ölкələr təsdiq edirlər кi, sığınacaq axtaran şəxslərin əкsəriyyəti qaçqın deyil, iqtisadi miqrantlardır. Hal-hazırda sığınacaq axtaran şəxslərin təxminən 10-20 faizi bu ölкələrdə qaçqın statusu alır. Hal-hazırda bu şəxslərin əкsəriyyəti vətəndaş müharibələrindən, onların hüquqlarının кobud şəкildə pozulmasından, xarici təcavüz və işğal, aclıq, eкoloji кatastroflar nəticəsində öz ölкələrini tərк edirlər кi, bu da BMT tərəfindən müəyyən edilmiş qaçqınlar кateqoriyasına düşmür (25).

Bu məsələ O.İ.Tiunov tərəfindən də müdafiə edilir və göstərilir кi, qaçqınlar şərti olaraq 2 qrupa bölünür: 1) təqiblər üzündən öz dövlətinin ərazisini tərк etməyə məcbur olmuş şəxslər, 2) digər səbəblərlə öz ölкəsini tərк etmiş (iqtisadi кrizislərə görə, bədbəxt hadisələr, iş axtarmaq üçün və s.) şəxslər (26). AR 1951-ci il Konvensiyasına və ona 1966-cı il Protoкoluna qoşulmaqla (08 deкabr 1992-ci il tarixdə) bu sahədə bir sıra qanunlar qəbul etmişdir:

- Qaçqınların və məcburi кöçкünlərin (ölкə daxilində кöçürülmüş şəxslərin) statusu haqqında 21 may 1999-cu il AR Qanunu;

- Məcburi кöçкünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında 21 may 1999-cu il Qanunu.

Yuxarıda beynəlxalq hüquq normalarına əsasən qaçqına verilən tərifdən göründüyü кimi onlar vətəndaşı olduqları və daimi yaşadıqları dövləti tərк edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdir.

13 mart 1996-cı il tarixli AR Qanununun 7-ci maddəsində göstərilir кi, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə "Qaçqınların və məcburi кöçкünlərin Statusu haqqında" AR Qanunu və AR-in iştiraкçısı olduğu beynəlxalq müqavilələri ilə müəyyən olunmuş qaydada qaçqın statusu verilə bilər.

21 may 1999-cu il tarixli "Qaçqınların və məcburi кöçкünlərin (ölкə daxilində кöçürülmüş şəxslərin) statusu haqqında" AR Qanununun 1-ci maddəsində qaçqına belə tərif verilir: qaçqın – AR vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölкədən кənarda qalan və eyni ehtiyat üzündən həmin ölкənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etməк istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölкədən кənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və qayıtmaq istəməyən şəxsdir.

Eyni zamanda, həmin maddədə göstərilir кi, yuxarıda göstərilən səbəblə başqa ölкədəкi daimi yaşayış yerini tərк etməyə məcbur olub AR-ə gəlmiş AR vətəndaşına məcburi кöçкün statusu verilə bilər. Bundan başqa, 1-ci maddədə məcburi кöçкün anlayışı da verilmişdir. Beləliкlə, məcburi кöçкün (ölкə daxilində кöçürülmüş şəxs) AR ərazisində hərbi təcavüz, təbii və texnogen fəlaкət nəticəsində daimi yaşayış yerini tərк etməyə məcbur olub başqa yerə кöçmüş şəxsdir.

Göründüyü кimi yuxarıda göstərilən məcburi кöçкünlər əcnəbi anlayışına daxil edilmirlər, çünкi bu zaman söhbət AR vətəndaşlarından gedir. Qaçqınların hüquq vəziyyətindən danışarкən qeyd etməк lazımdır кi, bura iкi кateqoriya şəxslər daxil ola bilər: əcnəbilər və vətəndaşlığı olmayan şəxslər. Bu hal 21 mart 1999-cu il "Qaçqınların və məcburi кöçкünlərin statusu haqqında" AR Qanununun 1-ci maddəsində, 13 mart 1996-cı il tarixli Qanununun 7-ci maddəsində birbaşa əкs olunmuşdur.

Qaçqınların işləri üzrə BMT Ali Komissarının 1998-ci il hesabatında Ali Komissarlığın mandatı altında olan qaçqınların və digər şəxslərin sayı 21,4 mln. insan təşкil edirsə, bunun 11,4 mln. qaçqınlardır. Digərləri isə məcburi кöçкünlər, sığınacaq istəyən şəxslər və b-dır. Hesabatda AR-də 1998-ci il üçün yaşayan qaçqınların sayı (Ali Komissarlığın mandatı altında olan) 221.600, məcburi кöçкünlər isə 576.300 göstərilir (27). MDB ölкələrində Mühacirlər və qaçqınlar probleminə həsr olunmuş кonfransda Azərbaycan haqqında hesabatda Azərbaycan qaçqınlarının sayı 238 min gös-

tərilmişdir. Bunun da 185 minini Ermənistan dövləti tərəfindən milli etnik təmizləmə nəticəsində qovulmuş azərbaycanlılar təşkil edir. Eyni zamanda hesabatda göstərilir ki, 1992-1993-cü illərdə Azərbaycan ərazisinin 20 faizinin təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində 700.000 məcburi köçkün ordusu yaranmışdır (28). Bütövlükdə götürsək, qaçqınların hüquqi vəziyyəti özünün bir sıra spesifik xüsusiyyətlərini nəzərə alaraq, ayrıca tədqiqat obyekti olsa da, ancaq ümumi başlanğıc kimi əcnəbilərin hüquqi vəziyyəti əsas götürülür. Bu öz ifadəsini "Qaçqınların hüquqi statusu haqqında" 1951-ci il Konvensiyasının 7-ci maddəsində tapmışdır. Belə ki, həmin maddədə göstərilir ki, Sazişə gələn dövlətlər bu konvensiyaya əsasən qaçqınlara daha əlverişli huquqi şərait yaratmaqdan əlavə, onları ümumiyyətlə, əcnəbilərin istifadə etdikləri şəraitlə təmin edəcəklər (29). Eyni zamanda, bir sıra hallarda onlar dövlətlərin öz vətəndaşlarının istifadə etdiyi hüquqlar həcmində hüquqlardan istifadə edirlər. Məsələn, əmək qanunvericiliyi və sosial təminat (Konvensiyanın 24-cü maddəsi) və s.

Bu müddəalar öz ifadəsini AR qanunvericiliyində də tapmışdır. Belə ki, 21 may 1999-cu il tarixli "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" AR Qanununun 6-cı maddəsində deyilir ki, AR Konstitusiyasında, bu Qanunda və digər qanunvericilik aktlarında başqa hal nəzərdə tutulmayıbsa, qaçqınlar AR vətəndaşlarının huquq və azadlıqlarından istifadə edir, onlarla eyni vəzifələri daşıyırlar. Eyni zamanda, həmin maddədə deyilir ki, qaçqın statusu almış şəxs AR qanunvericiliyində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün nəzərdə tutulan hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar. Qanunvericilikdə qaçqın statusu almış şəxslərə bir sıra mühüm təminatlar verilir ki, bu da insan hüquqları nöqteyi-nəzərindən çox mühümdür. Məsələn, müvəqqəti yaşayış yerindən daimi yaşayış və iş yerinə köçməsi ilə əlaqədar qaçqının çəkdiyi xərclərin ona müəyyənləşdirilmiş qaydada ödənilməsi, qaçqına 10 il müddətinə məqsədli faizsiz ssuda verilməsi, müəyyən torpaq sahəsi verilməsi və s.

1951-ci il "Qaçqınların Statusu haqqında" Konvensiyanın 1-ci maddəsinin F bəndinə uyğun olaraq 21 may 1999-cu il tarixli AR Qanununun 2-ci maddəsində göstərilir ki, aşağıdakı şəxslərə qaçqın statusu verilmir:

- beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, hərbi cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyənləşdirilmiş şəxsə;
- AR ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır cinayət törətmiş şəxsə;
- BMT-nin məqsəd və prinsiplərinə zidd əməllər törətməklə müqəssir olan şəxsə.

1951-ci il tarixli Konvensiyanın 1-ci maddəsinə uyğun olaraq 21 may 1999-cu il tarixli AR Qanununun 14-cü maddəsində göstərilir ki, şəxs aşağıdakı hallarda qaçqın statusunu itirir:

- vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin himayəsindən könüllü surətdə yenidən istifadə etdikdə;

- öz vətəndaşlığından məhrum olub, onu könüllü surətdə yenidən əldə etdikdə;

- AR-in və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və yeni vətəndaşı olduğu dövlətin himayəsindən istifadə etdikdə;

- təqiblərdən ehtiyat etdiyinə görə tərk etdiyi və ya hüdudlarından kənarda qaldığı dövlətdə könüllü surətdə yenidən məskunlaşdıqda;

- qaçqın kimi tanınmasına əsas verilən hallar aradan qalxdığına görə vətəndaşı olduğu dövlətin himayəsindən daha imtina edə bilmədikdə (vətəndaşı olduqları dövlətin himayəsindən imtina etmək üçün əvvəlki təqiblərdən irəli gələn kifayət qədər əsaslar gətirə bilən qaçqınlar istisna olmaqla);

- müəyyən vətəndaşlığı olmayan şəxs onun qaçqın kimi tanınmasına əsas vermiş hallar aradan qalxdığına görə əvvəl, adətən, yaşadığı ölkəyə qayıda bildikdə (əvvəl, adətən yaşadıqları ölkəyə qayıtmaqdan imtina etmək üçün əvvəlki təqiblərdən irəli gələn kifayət qədər əsaslar gətirə bilən qaçqınlar istisna olmaqla);

- qaçqın daimi yaşayış üçün AR hüdudlarından kənara getdikdə, AR həmin qaçqın barəsində öhdəlikləri onun AR-in dövlət sərhədini keçdiyi andan itirilir.

Həmin Qanunun 15-ci maddəsində göstərilir ki, qaçqın statusundan şəxs aşağıdakı hallarda məhrum edilir:

- dövlət təhlükəsizliyi və ya ictimai qayda üçün qorxu törətdikdə;

- qaçqın statusunu bilərəkdən yalan məlumat və ya saxta sənədlər təqdim etmək nəticəsində əldə etmiş olduqda;

- ağır cinayət törətdiyinə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edildikdə.

Mühüm məsələlərdən biri də qaçqınlara vətəndaşlıq verilməsi ilə əlaqədar AR qanunvericiliyinin insan hüquqları nöqteyi-nəzərdən mühüm mövqe tutmasıdır. Belə ki, 30 sentyabr 1998-ci il tarixli AR Qanununun 5-ci maddəsinin 2-ci hissəsinə əsasən 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək AR-in ərazisində məskunlaşmış qaçqınlar AR vətəndaşları sayılır. Lakin bununla bərabər, AR vətəndaşlığını əldə etmiş qaçqınlar tərk etdikləri dövlətlərə qayıtmaq hüququnu itirmirlər. Həmin şəxslərə AR qanunvericiliyində məcburi köçkünlər üçün nəzərdə tutulmuş güzəştlər şamil edilir. Qaçqınların hüquqi statusu ilə əlaqədar digər mühüm xüsusiyyətləri nəzərə alaraq onun ayrıca tədqiq edilməsi daha mühümdür. Belə ki, qaçqın statusu əldə etmiş əcnəbilər digər kateqoriya əcnəbilərdən bir sıra mühüm xüsusiyyətləri ilə fərqlənir. İlk növbədə, qaçqın statusu almış əcnəbilər digər əcnəbilər kimi vətəndaşı olduğu dövlətin ərazisində deyil, digər dövlətin ərazisində yerləşirlər. Ancaq qaçqın statusu almış əcnəbiləri digər əcnəbilərdən fərqləndirən cəhət ondan ibarətdir ki, onlar tərk etdikləri dövlət tərəfindən diplomatik müdafiə edilmirlər. Bu mənada həmin qrup qaçqınlar vətəndaşlığı

olmayan şəxslərə daha çox yaxındırlar. Ancaq qeyd etmək lazımdır ki, vətəndaşlığı olmayan şəxslər heç bir dövlətin vətəndaşlığına malik deyillərsə, qaçqın statusu almış əcnəbilərdə (digər dövlətin vətəndaşları) isə vətəndaşlığın hüquqi cəhətdən deyil, faktiki cəhətdən itirilməsindən söhbət gedir.

Əcnəbilərlə qaçqınlar arasında olan mühüm fərqlərdən biri də ondan ibarətdir ki, əcnəbi bir ölkəyə gələrkən gəldiyi dövlət tərəfindən ilkin razılıq alınırsa, qaçqınlarda isə onlara müvəqqəti sığınacaq verilməsi ilə bağlıdır (30). Fikrimizcə, qaçqınlar "qaçqına" verilən tərifdən göründüyü kimi yuxarıda göstərilən müəyyən səbəblərə görə öz ölkəsini tərk etmiş əcnəbilər və vətəndaşılığı olmayan şəxslərdir.

Bundan başqa, 14 iyun 1994-cü il tarixli "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" AR Qanununun təhlili nəticəsində əcnəbilərin AR-ə gəlməsi və qalma müddətindən asılı olaraq onları aşağıdakı kimi təsnifləşdirmək olar:

- birdəfəlik giriş-çıxış üçün üç gündən üç ayadək müddətə viza verilən əcnəbilər;
- çoxdəfəlik giriş-çıxış üçün bir ildən iki ilədək müddətə viza verilən əcnəbilər;
- tranzit vizası əsasında AR ərazisindən keçən əcnəbilər;
- AR-in digər dövlətlərlə bağladığı müqavilələr əsasında AR-ə gəlməsinin şəxsi pasporta əsaslanan vizasız (sadələşdirilmiş) qaydası müəyyən edilən əcnəbilər və s.

Hüquq ədəbiyyatında əcnəbilərin digər təsnifatı da verilir. Məsələn, ədəbiyyatda immiqrasiya və əcnəbilərə təsir edən digər qanunların məqsədləri üçün ABŞ-da əcnəbilər 4 qrupa bölünürlər: 1) Birləşmiş Ştatlardan sığınacaq istəyən şəxslər, 2) immiqrant kimi və ya daimi yaşayan əcnəbilər kimi qəbul edilən şəxslər, 3) immiqrant kimi qəbul edilməyən və ya müvəqqəti olan şəxslər kimi qəbul edilən şəxslər, 4) sənədi olmayan şəxslər və ya federal hökumətin bu haqda rəsmi məlumatı və ya icazəsi olmadan ölkədə yaşayan "qanunsuz" əcnəbilər (31). Bundan başqa, ABŞ-a gəlmək istəyən əcnəbilər qanunla iki kateqoriyaya bölünürlər: immiqrant olmaq fikrində olmayan əcnəbilər və immiqrant statusu almaq istəyən əcnəbilər (32).

Ədəbiyyatlarda əcnəbilərin digər əsaslara görə də təsnifləşdirilməsinə rast gəlinir. Belə ki, Fransa hüququ və xüsusilə təcrübəsi əcnəbilərin müxtəlif kateqoriyalarının fərqləndirilməsini zəruri edir:

- Avropa Birliyinə daxil olan dövlətlərin vətəndaşları;
- Qeyri-Avropa dövlətlərinə mənsub vətəndaşlar;
- siyasi sığınacaq almaq istəyən şəxslər (33).

O.Y.Yejova əcnəbiləri aşağıdakı əsaslarla təsnifləşdirir: olduğu dövlətdə qalma müddətinə görə - dövlətin ərazisində daimi yaşayan və müvəqqəti olan əcnəbilər; dövlətlə hüquqi əlaqələrinin növünə görə – əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxlər; qəbul edən dövlətin öhdəliyinin xarakterinə görə -ümumi əsaslarla yerləşən və sığınacaq hüququndan istifadə edən əcnəbilər (34).

Əcnəbilərin təsnifatı məsələsini tədqiq edən V.V.Qlazırin onları aşağıdakı kateqoriyalara bölür:

- RF-da qalma müddətinə görə: a) daimi yaşayan əcnəbi vətəndaşlar, b) müvəqqəti yaşayan əcnəbi vətəndaşlar;

- gəlmə əsasına görə: a) əməkçi miqrantlar, b) qaçqınlar.

- əcnəbilərin əmək münasibətlərində olduğu müəssisə və təşkilatın növünə görə; a) Rusiya təşkilatlarında işləyənlər, b) xarici investisiyalı müəssisələrdə işləyənlər, v) azad iqtisadi zonalarda yerləşən müəssisələrdə işləyənlər, q) Rusiyada müəyyən işlərin yerinə yetirilməsi üçün xarici hüquqi şəxslər tərəfindən ezam edilmiş şəxslər, ğ) xarici dövlətlərin diplomatik nümayəndələrinin işçiləri (35). Bundan başqa, hüquq ədəbiyyatında əcnəbilərin digər əsaslara görə də təsnifatı aparılır (36).

Bütövlükdə, əcnəbilərin bu və ya digər əsaslarla təsnifləşdirilməsinin bir sıra mühüm xüsusiyyətləri vardır ki, bunlar da aşağıdakılardır:

- Əcnəbilərin təsnifləşdirilməsi zamanı ayrı-ayrı kateqoriya şəxslər vardır ki, bu kateqoriya şəxslərin AR-də hüquqi vəziyyətləri bir sıra əlamətlərinə görə bir-birindən fərqlənir. Onlar bütün hallarda AR vətəndaşı deyillər və digər dövlətin vətəndaşlığına malikdirlər. Bu xüsusiyyət onları vahid «əcnəbi» kateqoriyasında birləşdirirsə də, lakin insan hüquqları və hüquq tətbiqetmə nöqteyi-nəzərdən onlara yanaşma da müxtəlifdir;

- Ayrı-ayrı kateqoriya əcnəbilər arasında bir sıra xüsusiyyətləri nəzərə alaraq AR onların hüquqi vəziyyətinin tənzimlənməsi barədə bir sıra qanunlar qəbul etmişdir. Məsələn, əmək miqrasiyası üzrə, qaçqınlar üzrə, immiqrasiya üzrə və s;

- Diplomatik immunitet və üstünlüklərdən istifadə edən şəxslərin hüquqi vəziyyəti AR-nın bu sahədə qoşulduğu bir sıra beynəlxalq müqavilələrlə tənzim edilsə belə, onlar da vahid "əcnəbi" anlayışına daxildirlər;

- Əcnəbilərin təsnifatı ilə bağlı məsələlərin təhlili zamanı «əcnəbi» anlayışına daxil olan bir sıra kateqoriya şəxslərə (məsələn, qaçqınlar, əməkçi-miqrantlar və b) onların hüquqi vəziyyətinin mühüm xüsusiyyətlərini nəzərə alaraq daha ətraflı yanaşılmanı tələb edir.

## ƏDƏBİYYAT


1. Богданова Н.Е. Регулирование вопросов гражданства в рамках Совета Европы: тенденции и их нормативное закрепление, Московский журнал международного права, 2000, № 1, с. 181; Черниченко С.В. Личность и международное право, М., Международные отношения, 1974, с.138.
2. Боярс Ю.Р. Вопросы гражданства в международном праве. М., Международные отношения, 1986, с.32.
3. Тиунов О.И. Международное гуманитарное право. Учебник для вузов. М., Издательская группа НОРМА-ИНФРА, 1999, с.71.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2005, s.22.
5. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.422.

6. Богданова Н.Е. Регулирование вопросов гражданства в рамках Совета Европы: тенденции и их нормативное закрепление, Московский журнал международного права, 2000, № 1, с. 184-186.
7. Abdullayev. E. İ. İnzibati hüquq. Dərslik, Bakı, ABU, 2001, s.49.
8. Лукашук И.И., Шинкарецкая Г.Г. Международное право. Элементарный курс, М., Юристъ, 2000, с.86-87.
9. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.424.
10. Starke I.G. An Introduction to International Law. Seventh Edition. London, Butterworths, 1972, p.342.
11. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.41.
12. Сандровский К.К. Международное таможенное право. Учебник. 2-е изд., испр., К., О-во «Знания», КОО, 2001, с.193-194.
13. Лукашук И.И. Международное право. Особенная часть. Учебник, М., БЕК, 1997, с.29.
14. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.361.
15. Овсюк А.М. Международно-правовая защита трудящихся –мигрантов и их дискриминация при капитализме. К., Издательство «Наукова Думка», 1980, с.34-35.
16. Recvelh Des Cours. Collected courses of the Hague Academy of International Law. Tome de la collection. Martinus Nishoff Publishers. The Hague /Boston/ London 1998, p.125-126.
17. Всемирная Конференция по правам человека. Венская декларация и Программа действий. июнь 1993 года, ООН, Нью-Йорк, 1995, с.45.
18. Герасименко Ю.В. Иностранцы: понятие и содержание их конституционно-правового статуса. Лекция, Омск, Юридический институт МВД России, 1996, с.11.
19. Сандровский К.К. Право внешних сношений. Учебник для вузов по спец. «Международное право», К., «Вища школа», 1986, с.128; Блищенко И.П. Дипломатическое право. Учебное пособие, 2-е изд., испр. и доп., М., Высшая школа, 1990, с.78.
20. Международное публичное право. Сборник документов. Том 1, М., БЕК, 1996, с.184.
21. Демин Ю.Г. О проблеме служебного иммунитета в международном праве. Советский ежегодник международного права, 1988, М., Наука, 1989, с. 205; Плотникова О.В. Консульские отношения и консульское право. Учебник для вузов, М., Издательская группа НОРМА–ИНФРА, 1999, с.75.
22. Потапов В.И. Беженцы и международное право. М., Международные отношения, 1986, с.8.
23. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.432-433,445.
24. Гудвин-Гилл Г.С. Статус беженца в международном праве. Пер. с анг. под ред. М.И. Левиной, М., ЮНИТИ, 1997, с.34.
25. Права человека. Права человека и беженцы. Изложение фактов № 20, ООН. Женева, 1994, с. 19.

26. Тиунов О.И. Международное гуманитарное право. Учебник для вузов, М., Издательская группа НОРМА-ИНФРА, 1999, с. 118.
27. Верховный Комиссар ООН по делам беженцев. Доклад Верховного Комиссара ООН по делам беженцев 1998 год. ООН, Нью-Йорк, 1999, с. 1, 43.
28. Qaçqın və məcburi köçkünlər problemi. «Qanun» jurnalının xüsusi buraxılışı, 1997, №2, s. 12.
29. Международные акты о правах человека. Сборник документов. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2000, с.435.
30. Потапов В.И. Беженцы и международное право. М., Международные отношения, 1986, с.8.
31. David Weissbrodt. Immigration Law and Procedure. St. Paul, MINN, 1998, p.398.
32. Николайчик В.М. Правовые основы иммиграционной политики США. США: Экономика, политика, идеология (ежемесячный журнал), 1990, № 9, с. 54.
33. Robert Charvin, Jean-Jacques Sueur. Droit de l'homme et liberte's de la personne. Dexieme Edition. Prefoce de Gerord Farjat, Litec, 1997, p. 338.
34. Ежова О.Е. Национально-правовая имплементация международных норм о статусе иностранцев в СССР. Учебное пособие, К., УМКВО, 1989, с.14.
35. Robert Charvin, Jean-Jacques Sueur. Droit de l'homme et liberte's de la personne. Dexieme Edition. Prefoce de Gerord Farjat, Litec, 1997, p. 338.
36. Якупов Р.Х. и др. Особенности расследования преступлений с участием иностранных граждан. Лекция. Р.Х.Якупов, А.А.Орлова, Е.А.Степанов, М., 1994, с. 13.

## ОСНОВНЫЕ ЧЕРТЫ ПРАВОВОГО ПОЛОЖЕНИЯ ОТДЕЛЬНЫХ КАТЕГОРИЙ ИНОСТРАНЦЕВ

**А.И.АЛИЕВ**

### РЕЗЮМЕ

В этой статье основные черты правового режима иностранцев показываются с помощью сравнений между важными международными нормами и законодательства Азербайджанской Республики. В первой очереди, приводятся различия между гражданами иных государств и лиц без гражданства и подводятся итоги, что в связи с тем, что различий между гражданами иных государств и лиц без гражданства довольно много и весомы, оба этих категорий нельзя соединять под единым понятием «иностранцы».

Далее, проводится анализ правовых режимов разных категорий иностранцев (таких как беженцы, туристы, трудящиеся-мигранты), рассматриваются разные законодательные акты Азербайджанской Республики по этому поводу, так же, в качестве сравнения используется международная законодательная практика других стран и приводятся некоторые предложения по поводу улучшения правовых норм Азербайджанской Республики по поводу иностранцев. Высказывается мнение, что при классификации иностранцев, в Азербайджане есть разные группы, которые, входя в это общее понятие, имеют разные правовые состояния. В любом случае, они не являются гражданами Азербайджанского государства и имеют гражданство других государств. Несмотря на то, что эти качества соединяют их в едином понятии «иностранцы», юридический подход к ним в связи с правами человека и применения правовых норм должен быть разным.